# Unudulmayan tarix

**Qanlı 20 Yanvar hadisələrindən 34 il keçir. 34 ildir ki, bu dəhşətli faciənin ağrıacılarını yaşayırıq. Xalqımız 34 ildir şəhidlərin məzarını ziyarət edir, müstəqilliyimiz uğrunda canından keçmiş oğul və qızlarımızın ruhuna dualar oxuyur. Şəhidlərimizin cəsarəti qarşısında hamımız ehtiramla baş əyirik.**






Xalqımızın başına gətirilən bu faciə o qədər ağrılıdır ki, heç vaxt unudulmayacaq. Bir anlıq o çağlara qayıdıb xatırlayıram ki, dəfn günü küçə və prospektlər adamlarla dolu idi. Ayağı yer tutanların hamısı - qoca, uşaq, xəstə, hətta əlillər də çəliklərinə, qoltuq ağaclarına söykənərək dəfndə iştirak etməyə gəlmişdilər. İnsan seli dayanmış küçələrə baxdıqca damarlarda qan donurdu. Hüznlü baxışlardan kədər yağır, qəm süzülürdü. Analar, bacılar saçlarını yolur, ağı deyib haray qoparırdılar. Bu kədərli səslər hər kəsi kövrəldirdi. Üzlər qəmli, gözlər qüssəli və nəmli idi. Dəfnə gələnlərin ardı-arası kəsilmirdi. Elə bil şəhər sakinləri yatmamış, səhəri ayaq üstə küçələrdə qarşılamışdılar. Səkilərə, yollara qərənfillərdən xalı döşənmişdi. Elə bil ölkəmizin paytaxtına gül yağışı yağmışdı. Ətrafdakı ağacların budaqlarına, daşların künc-bucağına qara lentlər bağlanmışdı. Binaların eyvanlarından qara bayraqlar asılmışdı. Qara lentlər bağlanmış divarlar, daşlar da bu ağrıya ağlayırdı.

Yer də, göy də yüz illərin sükutuna dalmışdı. Səmanın hər tərəfinə səpələnmiş qara buludlar da lal-dinməz bir nöqtədə ayaq saxlamışdı. Hiss olunurdu ki, buludların da gözü nəmlidi. Adamlar sıx dayandığından onların arasından keçmək olmurdu.

Yolboyu divarlara əyri-üyrü xətlə "Qorbaçov faşist", "Qorbaçov cəllad " və başqa söz və şüarlar yazılmışdı. Haqsız yerə başına gətirilmiş dəhşətli faciədən hiddətlənən xalqın qəzəbi kükrəyib daşırdı. Dağüstü parkın girəcəyində insanlar ayaqüstə dayanmağa güclə yer tapa bildi. Şəhidlərin dəfn mərasimi xalqın milli-azadlıq mübarizəsinin məkanı olan Azadlıq meydanından başlamışdı. Küçələr, prospektlər bağlanmış, nəqliyyatın hərəkəti dayandırılmışdı. Şəhidlərin cənazəsini gətirən izdiham parlament binasının qarşısına günortaya yaxın çatmışdı.

Yaşlı qadınların, qız-gəlinlərin ah-naləsi ürəkləri dağlayırdı. Beş-altı yaşında olan bir oğlan uşağı atasının böyüdülmüş şəklini sinəsinə möhkəm-möhkəm sıxaraq tabutun qarşısında ürkək-ürkək gedir, ətrafında göz yaşları axıdanlara baxırdı. Kədər və qəm yükü daşıyan izdiham da yavaş-yavaş onun arxasınca irəliləyirdi. Sovet əsgərləri uşağın atasını öldürüb onu yetim qoymuşdular. Daha bundan sonra bu kiçik bala ata səsi, ata nəsihəti eşitmədən, ata nəfəsi duymadan, ata çörəyi yemədən böyüyəcəkdi. İndiyəcən dünyanın acısını dadmayan körpə bu dəqiqələrdə atasızlığını o qədər də dərk etmirdi. Kövrək addımlarla atasını dəfn etmək üçün məzara doğru gedirdi.

Şəhidlərin meyitlərini aparanların üz-gözündən qəm-qüssə yağırdı. Ağlaşma, ah-nalə səsləri bir-birinə qarışmışdı. Bir məktəblinin tabutunu gətirəndə birdən-birə yaxınlığımızdakılar haray qopardılar. İlqar adlı şagirdin meyitini görəndə yanımızda dayanan ağsaqqal bir kişi hönkürüb ağlaya-ağlaya dedi:

- Allah sovet əsgərlərinə lənət eləsin. Heç uşağa da güllə atarlar? Onlar bu körpəyə necə silah qaldırıblar? Ay camaat, heç bunlarda insaf-mürvət deyilən şey yox imiş ki! Uşağın günahı nə imiş ki, onu güllələmisiniz? Görüm sizin qollarınız qırılsın, gözləriniz çıxsın.

Dəfn günü Xəzərdəki gəmilər də aramsız olaraq fit verirdi. Hərbi helikopterlər də kəpənəklər kimi göydə qanad çalıb şəhərin səmasında dövrə vurub izdihamı izləyirdi. Helikopterlərin gur səsi göyə pərdə çəkmiş qara buludlarda əks-səda verib Yer üzünə səpələnirdi.

1990-cı ilin 20 Yanvarı əbədi olaraq yaddaşımıza dəfn, hüzn və qürur günü kimi yazılıb. Ona görə belə yazılıb ki, biz həmin gün müstəqilliyimiz uğrunda öz şirin canından keçmiş şəhidlərimizi qürur hissi ilə torpağa tapşırdıq. Ölkəmizin azadlığı uğrunda canlarından keçənlər heç vaxt unudulmayacaq. Biz onlarla fəxr edib öyünürük. Çünki bu cəsur insanlar qanları ilə adlarını xalqımızın qəhrəmanlıq tarixinə yazıblar. Qanla yazılan tarix isə daim yaddaşlarda yaşayır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan.-2024.- 19 yanvar, № 11.- S.14.